***Hər şəhid bir zirvədir!***

***20 Yanvar şəhidi Azər Ələkbərovun xatirəsinə***
***Musiqi : Rəşid Şəfəq***
***Sözləri : ƏlƏmdar Quluzadə***

Tarixində qan izi,
Qanlar sınadı bizi,
Atılsaq da odlara,
Əyilmərik yadlara!

Nəqarət:

Bu güllə döyüşündə
Susdu onun döşündə
Qana susayan
Qara qəlpələr.
Azərbaycana
Şöhrətdir Azər!

Nədir kədər, qəm nədir,
Hər şəhid bir zirvədir!
Əl-ələ verəndə biz
Güclüdür Vətənimiz.

Nəqarət

Öz yoluindan dönmədi
Bələnsə də al qana,
Sevib qovuşdu Azər
Doğma azərbaycana!

Nəqarat

Hər şəhid bir zirvədir : 20 Yanvar şəhidi Azər Ələkbərovun xatirəsinə: mahnı / söz. müəl. Ə. Quluzadə ; bəst. R. Şəfəq // Savalan. - 2007.-19-22 yanvar. - S.2.